

Ələsgər ƏLIOĞLU

## SƏRNİŞİN QARIŞQALAR...

Şəhərdən kəndə
Dönərkən ata;
Kiçik avtobus
Alıb Turquta...
Bu avtobusa
Noğullarını
Yığıbdı oğlan...
Səhərdən bəri,
Çəkilmək bilmir,
Küçədən, yoldan...
Sürür həvəslə
Avtobusunu
İrəli-geri.
Qarışqalardır
Bu avtobusun
Sərnişinləri...

## DƏNİZƏ CUMAN DALĞIC

Dalğıc şəkli çəkmişdi,
Qumun üstə Əzizə.
Dalğalara qoşulub,
Dalğıc cumdu dənizə...

## ƏLİ-QOLU CLRMAQLANMIŞ...

Neçə gündür əli-qolu,
Cırmaqlanmış gəzir Baxış.
Öyrəndik ki,
O, pişiyin
Quyruğunu tapdayıbmış...

## DÖŞƏK

Çimərliyə gəlmişdik,
Həm çimək, həm əylənək.
Burda mən suyun üstə,
Saldım güllü bir döşək.

Sonra da bu döşəyin,
Çıxıb üstə uzandım.
Ləpələrin qoynunu,
Uzanıqlı dolandım...

Bu döşəyin içində
Nə pambıq, nə yun vardı.
Yəqin elə olsaydı,
Döşək suda batardı...

Ancaq batmırdı döşək-
Suyun üstə durmuşdu.
Axı onun içinə,
Hava doldurulmuşdu!..

## UÇURUM

Cığırla dolandım mən.
Gül-çiçəkli çəməni.
Həm dağ başına çıxdım,
Həm də gəzdim dərəni...
Birdən gəzdiyim cığır.
Buruldu durum-burum.
Ciğirin qabağını,
Kəsmişdi bir uçurum...

## DAĞ ÇAYI

Gün tutub güneyləri,
Dikəlibdi dağ çayı.
Bahar qarla yemləyib,
Kökəlibdi dağ çayı.

## ƏKİZ PÖHRƏLƏR

Gilənar ağacının
Bir cüt pöhrəsi çıxdı.
Bağda hər ikisi də,
Eyni bir boyda qalxdı...

Baxıb bu pöhrələrə,
Turqut dedi bir səhər:
-Ay baba,görürsənmi,
Əkizdir bu pöhrələr!..

## BALIQLAR

Balıqlar üzüb gəzər,
Çayda,göldə,dənizdə.
Onların arxasınca,
Düşməz suya bir iz də...

## İŞIĞIN DILI

Çıxıb təkcə gəzməyi,
Bacarıram şəhərdə.
Maşınlardan qorxmuram,
Heç vədə küçələrdə...
Qırımızı işıq deyir:
Keçiddə ayaq saxla!
Sarı deyir:
Hazırlaş!
Yaşıl deyir:
Di adla!
A dostlar, öyrənmişəm,
Keçməyi hər keçiddən.
İndi yaxşı bilirəm,
İşığın dilini mən.

## ÇƏYİRTKƏ

Tanıyın çəyirtkəni,
Boyu bicə tikəni...
Yeriməyi xoşlamaz,
Üz tutsa hansı yana:
Mənzil başına çatar,
O, hoppana-hoppana...

## DƏNİZİN TƏPƏLƏRİ

Dənizdə fırtına qalxıbdı,
Dənizdən təpələr çıxıbdı.

Dalğanın hər biri təpədir,
Dənizi yerindən tərpədir...

Haçan ki,fırtına yatacaq,
Təpələr dənizdə batacaq.

## İZ

Qarın üstə düşüb bir iz,
İzləyirik bu izi biz.

Bu iz belə hara gedir,
Bizi yora-yora gedir.

Dovşan yuva qurub harda,
Dayanacaq bu iz orda...

## TUTUQUŞU

Tutquşu almışam,
Çox məzəli səsi var.
Sözü yamsılamağa,
Yamanca həvəsi var.

Danışıram,
Necə də
Yamsılayır sözümü.
Danışmıram,
O,mat-mat
Durub döyür gözünü.

Bu quşun danışmağa
Meyli yamanca çoxdu.
Qəribədir ki,
Onun
Özünün sözü yoxdu...

## QIZIL SARMAŞIQ

Qizil sarmaşığa bax,
Sanki qızıl ilandı.
Bir də baxıb görərsən,
Hər nə gəlsə dolandı...

Onu yolub atmasan,
Zəhmətindən umma bar.
İlan kimi sarınıb,
Bağ-bostanı qurudar...